DOI: https://doi.org/10.36719/2663-4619/85/76-79

**Gülçöhrə Kamal qızı Hüseynzadə**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət
İdarəçilik Akademiyası
magistrant
gulu.huseyn23@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT HAKİMİYYƏTİ ORQANLARININ KONSTİTUSİON-HÜQUQİ ƏSASLARI

**Xülasə**

Azərbaycan Respublikasının Konstitusiyası müasir dövrün ən mükəmməl, ən demokratik konstitusiyalarından biridir. Bu Konstitusiya dünya səviyyəsində digər demokratik dövlətlərin praktikasından məlum olan ümumbəşəri dəyərləri, dövlət və onun atributlarından olan dövlət hakimiyyəti orqanlarını, həmçinin hakimiyyət bölgüsü prinsipini özündə təsbit etmişdir. Dövlət hakimiyyətinin əsas vəzifəsi insan və vətəndaş hüquq və azadlıqlarını, şəxsin şərəf və ləyaqətini tanımaq, onları müdafiə etməkdir. Çünki, demokratik dövlətdə insan və vətəndaş hüquq və azadlıqları ən ali dəyərdir. Həmçinin, demokratik dövlətdə hakimiyyətin mənbəyi olaraq xalq çıxış edir və, necə deyərlər, hakimiyyət xalqdan bəslənir. Dövlət orqanları dedikdə isə, dövlət tərəfindən təsis edilən, dövləti təmsil edən və onun funksiyalarını realizə edən dövlət hakimiyyətinin tərkib hissəsi başa düşülür. Dövlət orqanları da digər təsisatlar kimi cəmiyyətdə formalaşır və qərar qəbul etmək səlahiyyətinə malik olur. Məqalədə Azərbaycan Respublikası Konstitusiyasında hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq fəaliyyət göstərən dövlət hakimiyyəti orqanları, onların hüquqi statusu, fəaliyyət istiqamətləri və digər əlamətləri tədqiq edilir.

***Açar sözlər:*** *konstitusiya, dövlətin əsasları, hakimiyyət, hüquq və vəzifələr, dövlət orqanı*

**Gulchohra Kamal Huseynzade**
Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
gulu.huseyn23@gmail.com

## Constitutional and legal basis of state authorities in the Republic of Azerbaijan

**Abstract**

The Constitution of Azerbaijan Republic is one of the most perfect and democratic constitutions of its time. This Constitution has established the universal values known from the practice of other democratic states at the world level, the state and its state power bodies, as well as the principle of separation of powers. The main task of the state power is to recognize and protect human and civil rights and freedoms, the honor and dignity of a person. Because human and civil rights and freedoms are the highest value in a democratic state. Also, in a democratic state, the people act as the source of power, and, as they say, power is fed by the people. By state authorities, it is a part of the state power established by the state, representing the state and realizing its functions. State authoritie, like other institutions, are formed in society and have the authority to make decisions. The article examines the state power bodies operating in accordance with the principle of separation of powers in the Constitution of Azerbaijan Republic, their legal status, directions of activity and other characteristics.

***Keywords:*** *constitution, the foundations of the state, power, rights and duties, state authority*

## Giriş

XX əsrin sonlarında öz müstəqilliyini bərpa edən Azərbaycan dövləti sonrakı inkişaf istiqamətini müəyyənləşdirmək məqsədilə 12 noyabr 1995-ci ildə demokratik prinsiplərə cavab verən, insan və vətəndaş hüquq və azadlıqlarını ən yüksək səviyyədə müdafiə edən, beynəlxalq hüquq normalarına cavab verən təkmil bir Konstitusiya qəbul etdi. Sözügedən Konstitusiyanın mükəmməlliyinin ən əsas göstəricilərindən biri də onun dövlət hakimiyyətinin əsasını hakimiyyət bölgüsü prinsipi əsasında formalaşdırması və dövlət aparatının, dövlət hakimiyyəti orqanlarının bu prinsipə uyğun olaraq yaradılması idi.

Ümumiyyətlə, dövlət aparatı dedikdə nə başa düşülür? Dövlət aparatı − cəmiyyətdə dövlət idarəçiliyinin həyata keçirilməsi üçün vasitə olan orqanlar sistemidir. Bu anlayış dar mənada dövlətin idarəetmə aparatı, geniş mənada isə dövlət orqanların topluluğu kimi başa düşülür (2003:48). Dövlət öz fəaliyyətinin üsul və vasitələrini müəyyən orqanlar vasitəsilə yerinə yetirir və həmin orqanlar birlikdə dövlət aparatı sistemini formalaşdırır. Dövlət aparatı dedikdə, xalqın öz dövlət hakimiyyətini bilavasitə və yaxud nümayəndəli orqan və ya şəxs vasitəsilə həyata keçirməsi üçün nəzərdə tutulan dövlət mexanizmi başa düşülür. Dövlət aparatı böyük demokratik təmələ malikdir və dövlətin idarə olunmasında əhalinin iştirak etməsi prinsipi əsasında təşkil olunur. Məhz Azərbaycan Respublikası Konstitusiyasının müddəaları da bu bazaya söykənir. Belə ki, Konstitusiyanın 1-ci maddəsində hakimiyyətin mənbəyinin Azərbaycan xalqının olduğu, 2-ci maddədə isə Azərbaycan xalqının suveren hüquqlarını referendum və ya səsvermə ilə seçdiyi nümayəndələrlə realizə etdiyi təsbit olunmuşdur (2).

Dövlət aparatının ən vacib xüsusiyyətlərinə aşağıdakılar aiddir:

1) dövlət aparatı xüsusi olaraq idarəetmə ilə məşğul olan şəxslərdən təşkil edilir;

2) dövlət aparatı bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan qurumların mürəkkəb sistemidir;

3) dövlət aparatı öz tərkib hissələrinin həyata keçirdiyi funksiyaları təşkilati, maliyyə və zəruri olduqda isə məcburetmə tədbirləri ilə təmin edir (Cəfərli, Hüseynli, 2018:50).

Bəs dövlət orqanı nədir? Dövlət qulluğu haqqında AR Qanununun 7.1-ci maddəsinə görə dövlət orqanı elə bir təsisatdır ki, dövlət tərəfindən yaradılır, dövlətin funksiyalarını realizə edir, Konstitusiyaya və digər qanunlara uyğun qaydada yaradılır və dövlət büdcəsi, yaxud NMR-nin büdcəsindən maliyyələşir (4).

Dövlət orqanlarının hakimiyyət səlahiyyətləri, bir hakimiyyət orqanının digəri ilə qarşılıqlı əlaqəsi, dövlət və şəxsiyyət arasında olan ahəngdar münasibətlərin yüksək səviyyədə təmin edilməsi hüquqla məhdudlaşır. Cəmiyyətin müxtəlif inkişaf dövrlərində dövlət aparatının öz xüsusiyyətləri, öz inkişaf yolu və özünəməxsus strukturu olmuşdur. Bu da, təbii ki, iqtisadi, sosial və digər müxtəlif səbəblərlə, əhalinin tərkibi, dövlətin ərazisi, onun coğrafi mövqeyi, sərvətləri və digər əlamətlərlə əlaqəlidir.

Dövlət orqanı subyektiv olmaqla, hər dövlətin öz qanunlarına, öz fəaliyyətinə və əhalisinə müvafiq tərkibdə və funksiyada dövlət aparatı və dövlət orqanları təşkil olunur. Hər bir dövlət orqanı qanunla müəyyən edilmiş səlahiyyətə malikdir və dövlət aparatında təsbit olunan iyerarxik quruluşda müəyyən yer tutur. Dövlət orqanı dövlətin fəaliyyət mexanizminin qanuna müvafiq surətdə, xüsusi struktura, ictimai həyatın müəyyən sahəsində idarəetmə məsələləri üzrə normativ-hüquqi aktlarla müəyyən edilmiş səlahiyyətlərə malik olan və dövlət mexanizminin digər hissələri ilə qarşılıqlı əlaqədə və vəhdətdə olan dövlət aparatının vahid tərkib hissəsidir.

İlk növbədə qeyd edim ki, müasir Azərbaycan Respublikasının ilk Konstitusiyasında dövlət hakimiyyətinin klassik bölgüsü təsbit olunmuşdur. Məsələn, 7-ci maddədə qanunvericilik hakimiyyətinin Milli Məclis, icra hakimiyyətinin Prezident, məhkəmə hakimiyyətinin məhkəmələr tərəfindən həyata keçirildiyi təsbit edilmişdir. Həmçinin, hakimiyyət qollarının bir-birinə yalnız Konstitusiyada nəzərdə tutulmuş qaydada təsir etmə səlahiyyəti müəyyən edilmişdir.

Hakimiyyətin bölünməsi prinsipinin məqsədi hakimiyyətin bir şəxsin və ya orqanın əlində cəmlənərək bundan sui-istifadə edilməsi hallarının qarşısının alınmasıdır. Monteskyenin belə bir fikri vardır: "Əgər hakimiyyətin bu üç növü: qanunları yaradan hakimiyyət, qərarları icra edən hakimiyyət və cinayətləri mühakimə edən hakimiyyət eyni bir adamın şəxsində, yaxud əyanlardan,

zadəganlardan, və ya sadə insanlardan təşkil edilmiş eyni bir idarənin əlində birləşsəydi, o zaman hər şey məhv olardı".

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına qədər Azərbaycanda artıq qəbul olunmuş 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktında hakimiyyətlərin bölünməsi prinsipinin təməli qoyulmuşdu. Həmçinin Aktın 15-ci maddəsində qanunverici hakimiyyətin Konstitusiya, icra və məhkəmə hakimiyyətinin Konstitusiyadan əlavə olaraq hüquq və qanunla məhdudlaşması təsbit edilmişdir (5).

1995-ci il Konstitusiyasının 7-ci maddənin II hissəsində isə dövlət hakimiyyətinin daxili məsələlərdə hüquqla, xarici məsələlərdə isə beynəlxalq müqavilələrdə təsbit edilən müddəalarla məhdudlaşdığı müəyyən edilmişdir. Yəni, dövlət hər hansı ictimai münasibətdə başlıca olaraq dövlətdaxili və beynəlxalq hüququ əsas götürür (Əsgərov, 2011:92).

Hakimiyyət bölgüsü prinsipində qeyd olunan icra hakimiyyətinin həyata keçirilməsində Prezidentdən əlavə olaraq həmçinin Nazirlər Kabinetinin də rolu vardır. Həmçinin onun qanunverici orqanla əlaqəli şəkildə fəaliyyət göstərmək hüququ vardır. Lakin Konstitusiyada Nazirlər Kabinetinin Milli Məclis qarşısında istefası ilə bağlı hər hansı bir müddəa təsbit olunmamışdır, belə ki, bu barədə qərar məhz Prezident tərəfindən qəbul edilə bilər (Seyidov, 2014:89).

Milli Məclis iki əsas funksiyanı – qanunvericilik və nümayəndəlik finksiyalarını həyata keçirir. Belə ki, sözügedən orqan qanun qəbul edir, həmçinin, onun tərkibi xalq tərəfindən təşkil olunur. Milli Məclis xalq qadından danışmaq və onun adından müraciət etmək səlahiyyətinə malik olur (Allahverdiyev, 2018:71).

"Məhkəmələr və hakimlər haqqında" AR Qanununun 94-cü maddəsinə müvafiq olaraq Ali və apellyasiya instansiyası məhkəmələri, həmçinin Naxçıvan Muxtar Respublikasın Ali Məhkəməsinin hakimlərinin vəzifəyə təyin olunması Milli Məclis tərəfindən həyata keçirilir (9). Birinci instansiya məhkəmələri hakimlərinin isə vəzifədən kənarlaşdırılmasında Milli Məclis iştirak edir.

Həmçinin, hakimiyyət bölgüsü mexanizmində icra hakimiyyəti hər səviyyədə həmin səviyyənin özünün funskiyalarını yerinə yetirən, hər biri fərqli səlahiyyətlərə malik icra hakimiyyəti orqanları tərəfindən realizə edilir.

Məhkəmə hakimiyyətini həyata keçirən əsas orqan Konstitusiya Məhkəməsidir. Sözügedən orqan məhkəmə hakimiyyətində əhəmiyyətli yer tutmaqla, digər hakimiyyət növləri ilə qarşılıqlı əlaqədə olmaqla onlara yüksək təsir imkanına malikdir. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 40-cı maddəsində yeni seçilmiş Milli Məclisin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi, müharibə şəraitində AR Prezidentinin səlahiyyət müddətinin uzadılması, prezident seçkilərinin nəticələrinin rəsmi elan edilməsi, Konstitusiyanın və qanunlarının şərh edilməsi üçün verilən sorğular və müraciətlər və s.ilə əlaqədar işlərin icraatının Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir (10).

Azərbaycan Respublikasının Ali Məhkəməsinin sözügedən hakimiyyət bölgüsü mexanizmində yeri qismətdir. Lakin bəzi hallarda Konstitusiya Məhkəməsinin təcrübəsində yerli icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının Konstitusiyaya uyğun olub-olmamasının yoxlanması sözügedən orqanın səlahiyyətinə aiddir (2005:207).

Məhkəmə hakimiyyətində icra hakimiyyətində olduğundan fərqli olaraq, aşağı məhkəmə orqanları, yəni birinci instansiya məhkəmələri yuxarı instansiya məhkəmələrinə tabe və onlardan asılı deyil.

Həmçinin qeyd etmək istəyirəm ki, Konstitusiyanın 95-ci maddəsində Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi səlahiyyəti qeyd olunmuşdur. Parlamentin bu səlahiyyəti ilə müəyyən edilmişdir ki, sözügedən icra orqanının Milli Məclis qarşısında məsuliyyəti vardır. Həmçinin qeyd edirəm ki, Parlamentin sözügedən səlahiyyəti barədə hər hansı normativ, hətta nəzəri bir əsas yoxdur və bu səlahiyyət Nazir Kabineti üçün mütləq hüquqi nəticə yaratmır (Vladimirov, 2000:35).

## Nəticə

Qeyd etmək istəyirəm ki, hakimiyyət bölgüsü anlayışı dövlət idarəetməsi sahəsində görülən işlərdə, edilən fəaliyyətdə müəyyən qədər çaşqınlığa səbəb olmuşdur. Hakimiyyət bölgüsü dedikdə, dövlət hakimiyyəti yox, onun səlahiyyətləri başa düşülür, çünki, hakimiyyət bölünə bilməz

Həmçinin bildirirəm ki, Konstitusiyaya görə Azərbaycan dövləti prezidentli respublikadır. Bu da Prezidentin digər parlamentli respublikalarda fərqli olaraq geniş səlihyyətlərə malik olmasında özünü göstərir. Yəni, prezidentli respublikada Prezident həm dövlətin, həm də hökumətin başçısıdır.

Nəticə olaraq qeyd edim ki, hakimiyyətin bölünməsi prinsipi demokratik Azərbaycan dövlətinin hüquqi bazasının təməlini təşkil edən Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında da təsbit olunmuşdur.

## Ədəbiyyat

1. Azərbaycan hüququnun əsasları. (2003). I cild. Bakı.
2. 00 - Azərbaycan Respublikasının Konstitusiyası (e-qanun.az).
3. Cəfərli, C., Hüseynli, F. (2018). Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları. Bakı.
4. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu 926-IQ - Dövlət qulluğu haqqında (e-qanun.az).
5. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı. Vikipediya (wikipedia.org).
6. Əsgərov, Z. (2011). Konstitusiya hüququ. Bakı: Bakı Universiteti nəşriyyatı.
7. Seyidov, Ə. (2014). Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Bakı.
8. Allahverdiyev, S. (2018). Konstitusiya və hüququn əsasları. Bakı: "Hüquq Yayın Evi" nəşriyyatı.
9. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu. 310-IQ − Məhkəmələr və hakimlər haqqında (e-qanun.az).
10. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanunu. 561-IIQ − Konstitusiya Məhkəməsi haqqında (e-qanun.az).
11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarları Məcmuəsi. (2005). Bakı: Qanun.
12. Vladimirov, V.T. (2000). Prezidentskaya vlast i razdeleniye vlastey v poluprezidentskoy respublike. «Gosudarstvo i pravo».

**Rəyçi: h.ü.f.d. Reyhan Cəfərova**

Göndərildi: 13.10.2022 Qəbul edildi: 30.11.2022